BAĞIROV SAMİD

# ŞAH İSMAYILIN HƏYATI



## "FÜTUHATİ-ŞAHİ" VƏ "HƏBİBÜS-SİYƏR" ƏSƏRLƏRİ ƏSASINDA

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**Z.M.Bünyadov adına ŞƏRQŞÜNASLIQ İNSTİTUTU**

**Bağırov Samid Əlipaşa oğlu**

# ŞAH İSMAYILIN HƏYATI

***("Fütuhati- şahi" və "Həbibüs-siyər" əsərləri əsasında)***

**Bakı – 2024**

*Azərbaycan Milli Elmlər Akademiyası Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu Elmi Şurasının qərarı ilə çap olunur.*

**Elmi redaktor:** **Tofiq Nəcəfli**
*Tarix elmləri doktoru, dosent*

**Rəyçilər:** **Namiq Musalı**
*Tarix üzrə fəlsəfə doktoru, professor*

**Əhməd Quliyev**
*Tarix üzrə fəlsəfə doktotu, dosent*

**Bağırov S.Ə.** Şah İsmayılın həyatı *("Fütuhati- şahi" və "Həbibüs-siyər" əsərləri əsasında)*. Bakı: Elm, 2024, – 308 s.

ISBN 978-9952-569-84-1

© Bağırov Samid, 2024

## MÜNDƏRİCAT

**Elmi redaktordan**............................................................................5

**Giriş**...................................................................................................8

**I Fəsil. "Fütuhati-şahi" və "Həbibüs-siyər" əsərlərnini elmi dəyəri**. ..........................................................................12

1.1. "Fütuhati-şahi" əsərinin müəllifi Əmini Hərəvi kimdir? ...........14

1.2. "Fütuhati-şahi"nin nüsxələri ......................................................17

1.3. "Həbibüs-siyər" əsəri və onun elmi dəyəri ...............................20

**II Fəsil. Şah İsmayılın əcdadı: Səfəvilərin soy kökü** ......................24

2.1. Səfəvilərin soy kökü "Fütuhati-şahi" əsərində ...........................24

2.2. Səfəvi təriqətinin banisi Şeyx Səfiəddinin həyatına baxış ..........31

2.3. Şeyx Sədrəddin Musa.................................................................36

2.4. Xacə Əli Əlaəddin Siyahpuş ......................................................38

2.5. Şeyx Sədrəddin İbrahim Şeyxşah ...............................................40

2.6. Şeyx Cüneyd təriqətdən siyasətə doğru .....................................42

2.7. Şeyx Heydər ...............................................................................46

**III Fəsil. Təriqətdən hakimiyyətə gedən yol** ......................................53

3.1. Şah İsmayılın uşaqlıq illəri .........................................................53

3.2. Gilandan Təbriz taxtına doğru hərəkət .......................................65

3.3. Qızılbaşların Şirvana doğru irəliləməsi ......................................73

3.4. Şeyxoğlu İsmayılın Azərbaycan taxtına oturması .......................83

**IV Fəsil. İran, İraq və digər ərazilərin fəthi**. .....................................92

4.1. Həmədan döyüşü .........................................................................92

4.2. Şah İsmayıl İsfahan və Şirazda.. ..................................................94

4.3. Şah Kaşan və Qumda ..................................................................95

4.4. Çəlavilərə qarşı əməliyyat ..........................................................96

4.5. Yəzddə Məhəmməd Kərrəyə qarşı əməliyyat ............................101

4.6. Kürd Sarom xan və gilanlı Əmir Hüsaməddinə qarşı əməliyyat. ........................................................................107

4.7. Zülqədər bəyliyi ilə qarşılaşma ..................................................110

4.8. Vəkalət məsələsi .........................................................................119

4.9. Bağdadın fəthi .............................................................................120

4.10. Şah İsmayıl Kərbəla və Nəcəfdə ..............................................122

4.11. Xuzistan və Luristanın fəthi ......................................................127

4.12. Növbəti Şirvan yürüşü ..............................................................133

**V Fəsil. Şeybanilərlə münasibət: Xorasanın fəthi** ............................135

5.1. Məhəmməd xan Şeybani-Şah İsmayıl qarşıdurması ..................135

5.2. Mərv döyüşü ........................................................................ 141
5.3. Şah İsmayıl Heratda ................................................................. 147
5.4. Şah İsmayıl Mavəraünnəhrə doğru .......................................... 152
5.5. Qızılbaşların Mavəraünnəhrə ikinci yürüşü ................................ 156
5.6. Herat özbəklərin mühasirəsində ................................................ 161
5.7. Şah İsmayılın Xorasana ikinci yürüşü ....................................... 164

**VI Fəsil. Şah İsmayılın Osmanlı dövləti ilə münasibətləri** ............... 170
6.1. Osmanlı dövləti ilə münasibətlər ............................................... 170
6.2. Sultan Səlimin Qızılbaşlarla bağlı siyasəti ................................. 181
6.3. Çaldıran döyüşü ....................................................................... 183
6.4. Səlim Təbrizdə niyə səkkiz gündən çox qala bilmədi? ............... 198

**VII Fəsil. Çaldırandan sonrakı vəziyyət**... ............................................ 204
7.1. Çaldırandan sonrakı siyasi vəziyyət ........................................... 204
7.2. Şah İsmayılın daxili siyasəti ...................................................... 211
7.3. Şahın ailəsi .............................................................................. 222
7.4. Şahın vəfatı və varislik məsələsi ................................................ 227

**VIII Fəsil. Erkən Səfəvilər dövründə din** ............................................ 229
8.1. Səfəvilərdən öncə dini mühit ..................................................... 230
8.2. Səfəvilərdən öncə şiə dövlətlər .................................................. 242
8.3. Təsəvvüf və şiəlik ..................................................................... 247
8.4. Şeyx Səfiəddinin məzhəbi ......................................................... 253
8.5. Şah İsmayılın dini-məzhəbi baxışları .......................................... 256
8.6. Erkən Səfəvi dövründə dini maarifləndirmə işləri ........................ 261
8.7. Səfəvilər dövründə dini maarifləndirmədə
Kərbəla kultu və əzadarlıq ............................................................... 269
8.8. Üləma və Səfəvi dövlətinin dini legitimliyi ................................ 276
8.9. Səfəvilər dövləti dini dövlət idi? ................................................ 282
8.10. Təsəvvüf-fiqh və üsuli-əxbari qarşılaşması ............................... 286

**Nəticə** ....................................................................................... 292
**Mənbələr və ədəbiyyat** ................................................................. 297

## ELMİ REDAKTORDAN

Biz Azərbaycan türkləri olaraq dünya mədəniyyətinə verdiyimiz əvəzsiz töhfələrlə yanaşı, həm də tarixin dərin qatlarına gedib çıxan zəngin dövlətçilik irsinin varisləriyik. Bu irsi yaşatmaq və öyrənmək çağdaş Azərbaycan tarixçilərinin vətən və millət qarşısında müqəddəs borcudur. Dövlətçilik tariximizin ən şanlı səhifələrindən biri də, heç şübhəsiz ki, Səfəvilər xanədanının hakimiyyəti dövrü ilə başlamışdır. 1501-ci ildə görkəmli dövlət xadimi və sərkərdə Şah İsmayılın başçılığı altında yaradılan Azərbaycan Səfəvilər dövləti milli tariximizdə müsbət mənada silinməz bir iz qoydu. Şah İsmayılın rəhbərliyi ilə Azərbaycanın cənub və şimal torpaqlarının vahid dövlətin tərkibində birləşdirilməsi ölkəmizin sosial-iqtisadi və mədəni tərəqqisi üçün yeni üfüqlər açdı. Səfəvilər sülaləsinin himayəsi ilə anadilli Azərbaycan ədəbiyyatının sürətli inkişaf mərhələsi başladı. Azərbaycan türkcəsindən rəsmi yazışmalar və diplomatiya dili kimi istifadə edilməsi təcrübəsinin əsası qoyuldu.

İlk mənbələri öyrənməklə asanlıqla yəqin etmək olar ki, Azərbaycan tarixində həm siyasi, həm də mədəni və elmi sahələrdə parlaq şəxsiyyətlər çox olmuşdur. Belə tarixi şəxsiyyətlərdən, korifeylərdən biri də heç şübhəsiz Şah İsmayıldır. Həqiqi alimlər, nüfuzlu tarixçilər üçün Şah İsmayıl böyük dövlət xadimi və istedadlı sərkərdə olaraq qalır. Azərbaycanlıların şüurunda isə Şah İsmayıl Azərbaycan torpaqlarını birləşdirmiş, mərkəzləşdirilmiş Azərbaycan dövlətini yaratmış şəxsiyyətdir.

Xalqımızın dövlətçilik tarixində Səfəvilər imperiyası Şah İsmayılın rəhbərliyi altında ən yüksək mərhələ kimi əvvəlki və sonrakı Azərbaycan dövlətləri zəncirində mühüm bir halqa olmuşdur. Bu siyasi qurumlar bir-birini əvəz etməklə və çoxəsrlik Azərbaycan dövlətçiliyinin əsasını formalaşdırmaqla Azərbaycan türk tayfalarını birləşdirmiş, dövlət quruculuğu və idarəçilik ənənələrini, qonşu xalqlar haqqında bilikləri və informasiyanı, onlarla ünsiyyət mexanizmlərini, hakimiyyətin çox vaxt atadan oğula verilməsi təcrübəsini növbəti nəsillərə ötürmüşlər

Azərbaycan xalqının dövlətçilik tarixində böyük bir tarixi dövrü (235 il) əhatə edən qüdrətli Səfəvi imperiyası və onun yaradıcısı görkəmli dövlət xadimi Şah İsmayıl Səfəvi xüsusi yer tutur. Öz dövrünün beynəlxalq münasibətləri tarixində çox mühüm rol oynayan bu Azərbaycan imperiyası ümumdünya tarixində dərin iz qoyub. Elə buna görə də Səfəvi tarixi heç zaman öz aktuallığını itirməyib. Şah İsmayıl Səfəvi irsi nüfuzlu tarixçilərin tədqiqat obyekti olaraq hələ də qalmaqdadır.

Gənc tədqiqatçı Samid Bağırovun oxuculara təqdim olunan monoqrafiyası bu baxımdan diqqətəlayiqdir. S.Ə.Bağırovun "Şah İsmayılın həyatı ("Fütuhati-Şahi" və "Həbibüs-siyər" əsərləri əsasında)" adlı monoqrafiyası son illərdə Azərbaycanda Səfəvişünaslıq sahəsində göstərilmiş mühüm təşəbbüslırdən biridir. Məlum olduğu kimi, Şah İsmayılın hakimiyyəti dövründə iki salnamə qələmə alınmışdır. Bunlardan biri İbrahim Əmininin "Fütuhati-şahi" və digəri Qiyasəddin Xandəmirin "Həbibüs-siyər" əsərləridir. Adı çəkilən müəlliflərin hər ikisi Teymurilər mühitində yetişmiş xorasanlı tarixçilər olub, Səfəvi dövrü tarixçilik məktəbinin baniləri sayılırlar. Hər iki əsər Azərbaycan Səfəvilər dövlətinin yaranması tarixinə və Şah İsmayıl dövrünə dair ən dəyərli mənbələr hesab olunurlar. Bu baxımdan sözügedən əsərlərin tarixi mənbə kimi əhəmiyyətinin üzə çıxarılması istiqamətində atılan addımlar təqdirəlayiqdir.

S.Ə.Bağırov farsdilli mənbələri araşdırmaq üçün yetərli potensiala malikdir. Tədqiqatçının Səfəvi mənbələrinin orijinal mətnlərdən yararlanması və bəzi hallarda bu əsərlərdən parçaları iqtibas halında tərcümə etməsi bu potensialın bir təzahürüdür. Monoqrafiyada əvvəlcə İbrahim Əmini, Qiyasəddin Xandəmir və onların əsərləri haqqında məlumat verilir, daha sonra Səfəvi şeyxlərinin fəaliyyətlərinə nəzər salınır, ardınca Şah İsmayılın ömür yolu ətraflı şəkildə işıqlandırılır. Monoqrafiyada hərbi-siyasi və dini-məzhəbi məsələlərə daha çox diqqət yetirilir, mənbələr əsasında Azərbaycan tarixşünaslığına yeni faktoloji materiallar təqdim olunur.

Monoqrafiyada ən çox işıqlandırılmış problem Şah İsmayılın hərbi-siyasi fəaliyyətinin təsvirindən ibarətdir. Biz burada canlı bir Şah İsmayıl surətini, onun sevincini və kədərini, sevgisini və nifrətini, hissini və həyəcanını, uğurlarını və uğursuzluqlarını görürük.

Monoqrafiyada müfəssəl faktiki materiallara, mənbədən birbaşa tərcümələrə, döyüşlərin təsvirinə, diplomatik danışıqların və məktubların məzmununa yer verilmişdir. Tədqiqatçı Şah İsmayılın və qızılbaşların geniş coğrafiyaya yayılmış fəaliyyətini mənbənin dolğun məlumatları əsasında araşdırmağa müyəssər olmuşdur. O, sərkərdələrimizin və əsgərlərimizin at çapdığı, qılınc vurduğu hər yeri öz tədqiqatında əks etdirmiş, istər Azərbaycanda, istərsə də ölkəmizdən kənarda baş verən hadisələr haqqında ətraflı şəkildə söz açmışdır.

S.Ə.Bağırovun təqdim olunan monoqrafiyasında müəlliflə razılaşmadığımız məqamlar da vardır. Belə ki, monoqrafiyanın iki əsas qaynağı olan əsərlərin tanıtımı, təhlili, tənqidi və dəyərləndirilməsi mənbəşünaslıq metodları əsasında aparılmadığına görə dövrünün digər qaynaqları ilə müqayisədə tədqiq olunan əsərlərin dəyəri ətraflı şəkildə oxucuya çatdırılmayıb.

Xüsusən də, monoqrafiyanın "Erkən Səfəvilər dövründə din" adlanan son fəslində Şah İsmayılın dini siyasətindən daha çox erkən Səfəvi dövlətində mövcud olan dini həyat təhlil edilir. Həmin fəsildə dini həyatın araşdırıldığı iddia edilsə də, Şah İsmayıl dövrü üçün xüsusi əhəmiyyət kəsb edən Qızılbaşlıq ideologiyasının mahiyyəti tamamilə açılmamış vəziyyətdə, kölgədə qalıb. Bütün bunlara baxmayaraq, S.Ə.Bağırov tədqiq etdiyi qaynaqlarla yanaşı, istifadə etdiyi digər mənbələrdən yola çıxaraq erkən Səfəvilər dövründə dini vəziyyətə aydınlıq gətirməyə təşəbbüs göstərir. Onun buna müəyyən dərəcədə nail olduğunu söyləyə bilərik.

S.Ə.Bağırov qarşısına çətin bir vəzifə qoymasına baxmayaraq, işinin öhdəsindən layiqincə gəlmişdir. Monoqrafiya yeni faktlarla zəngindir. Biz bu əsəri Azərbaycan Səfəvişünaslığının son nailiyyətlərindən biri hesab edirik və onun müəllifinə yeni-yeni uğurlar arzulayırıq.

**Tofiq NƏCƏFLİ**
**t.e.d., dos.**

# GİRİŞ

2024-cü il Azərbaycanın unudulmaz tarixi şəxsiyyəti Şah İsmayıl Xətayinin vəfatının 500 illiyinə təsadüf edir. Cari il bu görkəmli dövlət xadiminə, şair və mütəfəkkirinə, habelə onun təsis etdiyi Səfəvilər dövlətinə həsr edilən müxtəlif elmi tədbirlərə şahiddir. Bu elmi tədbirlər və ərsəyə gətirilən əsərlər Şah İsmayıl haqqında yazılması və araşdırılması vacib olan işlərin çox az bir qismini əhatə edir. Azərbaycan müstəqilliyini əldə edəndən sonra, xüsusilə də son illərdə böyük tarixi şəxsiyyətlər ildönümləri və yubileylərinə müvafiq olaraq anılır və dövlət səviyyəsində fərqli illər onların adları ilə adlanaraq, müxtəlif tədbirlər keçirilir. Cari ilin də bu qəbildən olması qaçılmaz idi. Bu, Şah İsmayılın xalqımızın dövlətçilik tarixində müsbət mənada qoyduğu silinməz izdən irəli gəlir. Onun Azərbaycandan başlayaraq vahid bayraq altında qurduğu dövlət indiyə qədər də milli-mənəvi kimliyimizə, ədəbiyyatımıza, hətta folklorumuzun formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərib. Şah İsmayılın dövlətçilik mirası o qədər parlaqdır ki, Azərbaycandan kənarda da onun varisi olduğunu iddia edənlər var. Burada söhbət, mərkəzi Azərbaycan olmaqla Ceyhun çayından Fərat çayına, Dərbənddən körfəzə qədər uzanan böyük imperiyadan söhbət gedir. Şah İsmayıl bu imperiyanı möhkəm dayaqlar üzərində, çox qısa zamanda yaratmış və o zaman dövləti belə sürətlə ərsəyə gətirməsi çoxlarını heyrətləndirmişdi.

Şah İsmayılın dövlətçilik tarixində qoyduğu izdən əlavə ədəbiyyatımızda təsirinə görə, Azərbaycan Respublikasında əsərləri dövlət varidatı və tarixi irs elan edilən müəlliflərin siyahısında ən öndə gələnlərdəndir. Belə ki, Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısı Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli qərarı ilə təsdiq edilmiş sənədə əsasən hazırlanmışdır. Şah İsmayılın "Dəhnamə" adlı əsəri Azərbaycan ədəbiyyatında məsnəvi janrında yazılan ilk poemalardan biri sayılır. Buna əsasən Şah İsmayılın yaradıcılığı, irsi və qurduğu dövlətin əhəmiyyəti barədə daha çox araşdırmalara ehtiyac duyulur.[1]

"Şah İsmayılın həyatı" mövzusunun "Fütuhati-şahi" və "Həbibüs-siyər" əsərləri əsasında araşdırılmasını zəruri edən şərtlər var. Səfəvilər öz dövlət quruculuğunda Peyğəmbərdən sonra On iki imama etiqadı əsas tutaraq, o dövrdə Osmanlı (1299-1922), Şeybani (1500-1598) və Məmlük (1250-1517) dövlətləri üçün yad görünən fərqli siyasi-ictimai və dini

[1] Şah İsmayılın oğlu Sam Mirzə "Töhfeyi-Sami" əsərində (s. 9) atasının Xətayi təxəllüsü ilə türk və fars dilində şeirlər yazdığını bildirir.

cərəyanı həyata keçirdilər. Bu cərəyan Səfəvilərə qonşu olan adıçəkilən dövlətlərə yad görünsə də, öncəki əsrlərdə bir çox bölgələrə yad deyildi. Əslində bu cərəyan hicri-qəməri tarixinin elə I əsrinin II yarısından müxtəlif formalarda baş qaldırmış, əsasən də hakim sistemlərə etiraz əlaməti olaraq qalxmış, müəyyən zamandan sonra yerini başqasına vermiş bir cərəyan idi. Digər ifadə ilə desək, Səfəvi dövləti bütün ideologiyası ilə birgə hicri-qəməri tarixinin elə ilk əsrindən Əməvilərə, Abbasilərə və onlardan sonra gələn bəzi dövlətlərə qarşı baş qaldırmış və arzu olunan uğuru qazana bilməyən cərəyanların ən bacarıqlısı idi. Bu hərəkətlənmə demək olar Səfəvilərdən öncəki min illiyin hər yüz ilində bir neçə dəfə müsəlman dünyasının fərqli yerlərində özünü biruzə vermiş və varlığını göstərmişdir. Bu məqamı görməzdən gəlmək tarixçilərin bir qismini, Səfəvilərin guya tam yeni bir ideoloji xətt üzərində hərəkət etdiklərini dilə gətirməsinə səbəb olmuşdur. Monoqrafiyada Səfəvilərin ideoloji xəttinin keçmişdəki bənzərləri və prototiplərinə, habelə onların tarixi xronikasına nəzər salınacaq.

Azərbaycan dilində Səfəvilərlə bağlı ərsəyə gətirilmiş əsərlərdə Şah İsmayılın hərbi yürüşlərinə, Səfəvilər dövlətinin xarici əlaqələrinə və sosial-iqtisadi durumuna daha çox diqqət ayırılmışdır. Lakin biz öz araşdırmamızda o dövrün ideoloji məsələlərinə, bu sahədə ünvanlanmış və şişirdilmiş ittihamların cavablandırılmasına xüsusi yer ayıracağıq. Belə ki, mövzunu aktual edən məsələlərdən biri də bəzi tədqiqatçıların Şah İsmayılı məzhəb ayrılığı məsələsində şişirdilmiş məlumatlar əsasında ittiham edərək, subyektiv mövqedən mühakimə etməsidir. Bəzən bu ittihamlar o qədər aşırı və qərəzli həddə çatır ki, Şah İsmayılın xanımı və anası ilə bağlı iftiraların qələmə alınıb kitablara salınması və geniş şəkildə tirajlanmasına gətirib çıxarır. Əsassız töhmətlər bəzən o dərəcəyə çatır ki, sünni alimi Mirzə Məxdum Şərif belə töhmətlərə etiraz edir.[2] Gizli deyil ki, Səfəvilərin təbliğ və təşviq siyasəti tədricən bölgədə fərqli dini ideologiyanın dirçəlməsinə səbəb olub. Bu məqamda "təşviq və təbliğ" siyasəti inkaredilməz bir fakt olsa da "təhdid və təqib" siyasəti ilə bağlı deyilənlər həddindən artıq şişirdilmiş məlumatlar olaraq qiymətləndirilir. Təbii ki, bu əlaqəli məsələlər "Fütuhati-şahi" və "Həbibüs-siyər" əsərlərinin aidiyyatı mövzuları çərçivəsində bəhs ediləcəkdir.

Bunu xüsusilə qeyd etmək lazımdır ki, Ağqoyunlu (1468-1501) dövlətinin son 10 ili tez-tez hakimiyyət dəyişikliklərinə məruz qaldığından ölkədə ciddi özbaşınalıq və dərəbəylik hökm sürürdü. Ağqoyunlu ərazilərinin

---

[2] Məhəmməd Təqi Məşkurian, "*Macəraye səcdə bər şah dər dərbare Şah İsmail Səfəvi və Şah Təhmasib*", "Məcəlləye danəşkədeye Ədəbiyyat və Ülume İsnaniye Daneşqahe İsfahan", Say: 14, s 110-115.

ayrı-ayrı bəy və əmirlər tərəfindən idarə edilməsi tələb edirdi ki, tam iqtidarlı bir qüvvə ortaya çıxaraq bölgəni xaos və ixtilafdan xilas edib, onu bir çətir altında birləşdirsin. Belə bir vaxtda Şah İsmayılın hərəkatı tam zamanında atılmış bir addım kimi qiymətləndirilir.

Bundan öncə ölkəmizdə dəyərli alimlər və araşdırmaçılar Şah İsmayıl və Səfəvi dövləti haqda bir sıra əsərləri yazıb və bir qismini də fars dilindən doğma dilimizə tərcümə ediblər. Səfəvişünas alim, mərhum professor Oqtay Əfəndiyevin (1926-2013) "Azərbaycan Səfəvilər dövləti", Ə.Ə.Rəhmaninin "Azərbaycan XVI əsrin sonu və XVII əsrdə (1590-1700-cü illər)", mərhum professor Şahin Fərzəliyevin "Azərbaycan XV-XVI əslərdə (Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" əsəri üzrə)" adlı mühüm araşdırmaları və qiymətli tərcümələri vardır. Professor Yaqub Mahmudovun "Azərbaycan diplomatiyası: Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə əlaqələri (XV–XVII yüzilliklər)" adlı qiymətli əsəri, habelə, Tofiq Nəcəflinin başda "Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti" olmaqla bir sıra əsərləri vardır. Mehman Süleymanovun "Şah İsmayıl Səfəvi", Namiq Musalının "I Şah İsmayılın hakimiyyəti (Tarixi aləmarayi Şah İsmayıl" əsəri əsasında)", Şükufə Məmmədovanın "Xülasət ət-təvarix Azərbaycan tarixinin mənbəyi kimi" kitabı, habelə Şahin Yəhyayev və Emin Əliyevin tərcümə edib ərsəyə gətirdikləri "Şah İsmayıl Səfəvi - Tarixi diplomatik sənədlər toplusu" adlı kitabı, Məsiağa Məhəmmədinin tərcümə etdiyi "Qızılbaşlar tarixi", Əbülfəz Rəhimovun "Təkmilətül-əxbar" və "Şah Təhmasibin təzkirəsi" tərcümələri, Oqtay Əfəndiyev və Namiq Musalının "Tarixi aləmarayi Abbasi", "Əhsənüt-təvarix" tərcümələri və sair işlər Səfəvilər tarixi ilə bağlı Azərbaycan dilində ərsəyə gətirilmiş əsas elmi əsərlərdəndir. Adıçəkilən əsərlərin hər biri Səfəvi dövlətini və o dövrün müəyyən sahələrini ehtiva edir. Məsələn mərhum professor Oqtay Əfəndiyev öz kitabında Səfəvi dövlətinin siyasi proseslərini və sosial-iqtisadi vəziyyətini araşdırdığı halda, Yaqub Mahmudov və Tofiq Nəcəfli Səfəvilər dövlətinin xarici siyasəti məsələsinə köklənibler. Namiq Musalı öz monoqrafiyasında o dövrdə aparılan döyüşləri "Tarixi aləmarayi Şah İsmayıl" kitabı əsasında detallı şəkildə qələmə alıb. Doğma dilimizdə yazılan bu əsərlərin hər biri araşdırdığı sahəni detallı və təfərrüatlı şəkildə ehtiva edə bilmişdir. Bizim araşdırmamızın yeniliyi isə Şah İsmayılın həyatının və onun ideoloji xəttinin "Fütuhati-şahi" və "Həbibüs-siyər" əsərləri əsasında araşdırılmasıdır. Habelə bu işin yeniliklərindən biri də müstəqil şəkildə araşdırmaya cəlb edilməyən adıkeçən iki əsərin monoqrafiyamızda ana xətt olaraq nəzərdə tutulmasıdır.

Deyildiyi kimi 2024-cü ilin Şah İsmayılın vəfatının 500 illiyinə təsadüf etməsi, bizi bu dövrə yenidən baxmağa və onu yenidən incələməyə sövq etdi. Xüsusilə də bizə dəstək olan Rəşad bəy Ələkbərovun təşviqi, o tarixi şəxsiyyətin həyatına yenidən nəzər salmağa şərait yaradan amillərdən biri oldu. Buna görə həm ona, həm də başda AMEA-nın Şərqşünaslıq İnstitutunun direktoru akademik Gövhər Baxşəliyevaya, eləcə də monoqrafiyanın elmi redaktoru AMEA Tarix İnstitutunun elmi işlər üzrə direktor müavini, tarix üzrə elmlər doktoru Tofiq Nəcəfliyə və digər alimlərə təşəkkürümüzü bildiririk.

**Samid Əlipaşa oğlu BAĞIROV**
*AMEA akad.Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutunun elmi işçisi*

## MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

### Azərbaycan dilində:


Əhməd Əsgər, *Səfəvilər dövründə din və dini münasibətər*, "Mütər-cim", Bakı 2019.

İmadəddin Nəsimi, *Nəsiminin Seçilmiş əsərləri*, Bakı, Lider Nəşriyyatı, 2024.

Məhəmməd Füzuli, *Məhəmməd Fizuli əsərləri - Hədiqətüs-süəda*, (Tərtibatçı: Əlyar Səfərli), Bakı, Şərq-Qərb, 2005.

Məhəmməd ibn Hüseyn Katib Nişati, *Şeyx Səfi təzkirəsi (Səfvətüs-səfanın XVI əsr türk tərcüməsi)*, Nurlan, 2006 Bakı.

Namiq Musalı, *I Şah İsmayılın hakimiyyəti (Tarixi Aləmarayi Şah İsmayıl əsəri əsasında)*, AMEA Əlyazmalar İnstitutu, "Nurlan" 2011, Bakı.

Oqtay Əfəndiyev, *Azərbaycan Səfəvilər Dövləti*, Şərq-Qərb, 2007 Bakı.

Oqtay Əfəndiyev, Namiq Musalı, *Tarixlərin ən yaxşısı* (Əhsənüt-təvarix əsərinin tərcüməsi), Kastamonu, 2017 Bakı.

Şah İsmayıl Xətayi*, Şah İsmayıl Səfəvi (Xətai) külliyyatı*, Tərtibatçı və elmi tənqidçi Mirzə Rəsul İsmayılzadə, Əl-Hüda nəşri, 2004 Tehran.

Şahin Yəhyayev və Elmin Əliyev, *Şah İsmayıl Səfəvi, Tarixi-diploma-tik sənədlər toplusu*, Şərq-Qərb nəşriyyatı, 2014.

Tofiq Nəcəfl, *Azərbaycan Səfəvi Dövlətinin Hindistan türk-müsəlman sultanlıqları ilə münasibətləri,* "Turxan", 2020 Bakı.

Tofiq Nəcəfli, *Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti*, Bakı: Turxan NPB, 2020.

Tofiq Nəcəfli, *Səfəvilərin etnik mənsubiyyəti məsələsi müasir Türkiyə tarixşünaslığında*, Strategiya jurnalı, mart-aprel, 2014, №-2.


### Fars və ərəb dillərində:


ابوالقاسم کمالی، *تاریخ علمای نیشابور (از قرن اول هجری تا کنون)*، چاپ اول، نشر طلایی، پاییز ۱۳۸۶، تهران

احمد ابن علی القلقشندي، *صبح الأعشی في صناعة الإنشا*، دار الكتب العلمية، ۱۹۷۸ م، بیروت

احمد بن حسین، منشی قمی، *خلاصة التواریخ*، المحقق: احسان اشراقی، الناشر: مؤسسه انتشارات و چاپ طهران، ۱۳۸۳ تهران

احمد رفیق و توفیق سبحانی، *شیعیان و بکتاشیان در قرن دهم/شانزدهم*، معارف ۱۳۷۲ شماره ۲۸

احمد فریدون بك، *منشئات السلاطین*، الهيئة العامة لدار الكتب والوثائق القومية, ۱۸۴۸، اسطنبول

احمد کسروی، *تاریخ پانصد ساله خوزستان*، ناشر: دنیای کتاب، ۱۳۹۱، تهران

احمد کسروی، *شیخ صفی و تبارش*، ناشر: فردوس، ۱۳۷۹، تهران

احمد کسروی، *باز هم صفویه*، مجله آینده، ج ۲، ش ۱۱ (اسفند ۱۳۰۶)

ادوارد براون، *تاريخ ادبي ايران از آغاز صفويه تا پايان قاجار (ج چهار)*، ترجمة رشيد ياسمي، انتشارات بنیاد، ۱۳۶۴ تهران

اسکندر بگ منشی، *تاریخ عالم آرای عباسی*، ناشر: دار الطباعة، ۱۳۱۴ه.ق تهران

اعتمادالسلطنه، *خیرات حسان*، پژوهشگاه علوم انسانی و مطالعات فرهنگی ۱۳۴۹ تهران

غلامرضا طباطبایی‌مجد، *ایران در روزگار شاه اسماعیل و شاه طهماسب صفوی*، ناشر: دکتر محمود افشار، ۱۳۹۱ تهران

بوداق منشی قزوینی، *جواهر الاخبار*، سازمان چاپ و انتشارات وزارت فرهنگ و ارشاد اسلامی، ۱۳۷۸ تهران

تقی‌الدین مقریزی، *مواعظ الاعتبار بذکر الخطط والآثار (خطط المقريزي)*، دار الكتب العلمية بيروت

توکل بن اسماعیل، ابن بزاز، *صفوة الصفا*، محقق: غلامرضا طباطبایی مجد، ناشر: زریاب، ۱۳۷۶، تبریز

جعفر المهاجر، *الهجرة العاملية الى ايران في العصر الصفوي: اسبابها التاريخية ونتائجها الثقافية و السياسية*، دار الروضة، ۱۹۸۹ بیروت

جلال‌الدین محمد منجم یزدی، *تاریخ عباسی (روزنامه ملاجلال)*، چاپ سیف‌اللّه وحیدنیا، ۱۳۶۶ تهران

*جهانگشای خاقان (تاریخ شاه اسماعیل)*، ناشر: راولپندی صدر، ۱۹۸۶ اسلام آباد

حافظ حسین کربلائی تبریزی، *روضات الجنات و جنات الجنان*، تصحیح: جعفر سلطان‌القرائی، ۱۳۴۹ تهران

حسن روملو، *احسن‌التواریخ*، چاپ‌عبدالحسین‌نوائی، تهران۱۳۵۷ ه.ش

حسن بن مرتضی حسینی استرآبادی، *تاریخ سلطانی: از شیخ صفی تا شاه صفی*، چاپ احسان اشراقی، ۱۳۶۶ تهران

حسن نظام الملك، *سیاست نامه*، ناشر: شرکت انتشارات علمی فرهنگی، ۱۳۷۱ تهران

حسین پیرزاده‌زاهدی، *سلسله النسب صفویه*، ناشر: ارمغان تاریخ، ۱۳۹۵ تهران

حسین کاظم زاده، *پنج اثر ارزنده از انتشارات ایرانشهر (راجع به سلسلة النسب صفویه)* ،چاپ جواد اقبال از روی چاپ برلین، ۱۳۵۱ تهران

حسین میرجعفری، *تاجلی خانم زن ستیهنده چالدران*، دانشکده ادبیات و علوم انسانی دانشگاه تبریز ۱۳۵۳ شماره ۱۱۲

حسین میرجعفری، *نقد و بررسی علل و پیامد اقامت اسماعیل میرزای صفوی در گیلان (بین سالهای۸۹۸- ۹۰۵ هـ.ق)* مجله پژوهشهای تاریخی ، دوره ۲، شماره ۱ - شماره پیاپی ۱، اردیبهشت ۱۳۸۹ش

حمیده شهیدی، *سیاست مذهبی سلطان حسین بایقرا(مطالعة موردی: تأثیر بر تشیع)*، مطالعات تاریخ اسلام سال هشتم تابستان ۱۳۹۵ شماره ۲۹

خورشاه ابن قباد، *تاریخ إلچی نظامشاه*، ناشر: انجمن آثار و مفاخر فرهنگی، ۱۳۷۹ تهران

دکتر عباسقلی غفاري فرد، *خاستگاه نیاکان شیخ زاهد و محل کنونی آرامگاه او*، پژوهشنامه تاریخ، سال سوم ، شماره دوازدهم

راجر سیوری، *ایران عصر صفوی*، مترجم: کامبیز عزیزی، ناشر: نشر مرکز، ۱۳۷۸، تهران

رسول جعفریان، *صفویه در عرصه دین فرهنگ و سیاست*، پژوهشکده حوزه و دانشگاه، ۱۳۷۹ قم

زین العابدین شیروانی، *ریاض السیاحه*، کتابفروشی سعدی، ۱۳۳۹ ه.ش، تهران

سام میرزا صفوی، *تحفه سامی*، مصحح: حسن وحیددستگردی، ناشر: ارمغان، ۱۳۱۴ تهران

سید شریف سمرقندی، *تاریخ راقم سمرقندی*، ناشر: بنیاد موقوفات دکتر محمود افشار، ۱۳۸۰ تهران

سید مسعود سید بنکدار، *بررسی جایگاه و عملکرد تاج قزلباش در تحولات سیاسی دوره صفویه*، فصلنامه علمي شیعه شناسي، دوره ١٤، شماره ٥٦، دی ۱۳۹۵

شاه طهماسب، *تذکره شاه طهماسب*، کاویانی، ۱۳۴۳ه.ق، برلین

شورمیج محمد، *نقش گیلان در روند قدرت‌گیری شاه اسماعیل اول صفوی برای تصاحب سلطنت*، جستارهای تاریخی، پژوهشگاه علوم انسانی و مطالعات فرهنگی، پاییز ۱۳۹۵ تهران

صدرالدین ظهیرالاسلام، *شکرستان در تاریخ شش‌هزار سالۀ خوزستان*، ۱۳۰۸ش

صدرالین ابراهیم امینی هروی، *فتوحات شاهی (تاریخ صفوی از آغاز تا سال ۹۲۰ ه.ق)*، تصحیح: دکتر محمدرضا نصیری، ناشر: انجمن آثار و مفاخر فرهنگی، ۱۳۸۳ تهران

صفری فروشانی، *گونه شناسی مدعیان دروغین مهدویت*، مشرق موعود سال هشتم ،تابستان ۱۳۹۳ شماره سی

ضابط حیدر رضا، *ظهور سلسله صفویه نقطه عطفی در تاریخ ایران* ،فصلنامه مشکوة، شماره ۵۹

ظریفه کاظمی و سائرین، *کشمکشهای عالءالدوله ذوالقدر با حکومت های صفویه و عثمانی*، مطالعات تاریخ اسلام، سال پانزدهم، شماره ۵۶، بهار ۱۴۰۲

عادل رستمی، *سیادت و تشیع صفویان در دوره پیش از سلطنت*، مجله: تاریخ در آیینه پژوهش، ۱۳۸۶، شماره چهارده

عالم آرای صفوی ( *عالم آرای شاه اسماعیل* )، مصحح: یدالله شکری، ناشر: بنیاد فرهنگ ایران، ۱۳۵۰ تهران

عبدالرحمان ابن خلدون، *تاریخ ابن خلدون*، دارالفکر، ۱۹۸۱ بیروت

عباس سرافرازی، *نقش شیخ صفی الدین اردبیلی در تعدیل خوی وحشی مغولان*، نخستین همایش علمی بین المللی شیخ العارفین سید صفی الدین اردبیلی، ۶/۱/۲۰۱۴

عباسقلی آقا باکیخانوف، *گلستان ارم*، فرهنگستان علوم جمهوری شوروی سوسیالیستی آذربایجان، انستیتوی تاریخ، اداره انتشارات علم، ۱۹۷۰ باکو

عبد الرحمن بن أحمد بن محمد الجامي، *نفحات الأنس من حضرات القدس*، ناشر: لیسی، ۱۸۵۸ کلکته هندوستان

عبدالحسین زرین‌کوب، *دنباله‌جستجو در تصرف‌ایران*، انتشارات امیر کبیر، ۱۴۰۱ تهران

عبدالحسین نوایی، *شاه اسماعیل صفوی (اسناد و مکاتبات تاریخی همراه با یادداشت های تفصیلی)*، انتشارات ارغوان، ۱۳۶۸ تهران

علی بن شمس‌الدین لاهیجی، *تاریخ خانی*، بنیاد فرهنگ ایران، ۱۳۵۲ه.ش تهران

علي الخربوطلي حُسني، *غُرُوب الخِلافة الإسلاميَّة*، مُؤسسة المطبوعات الحديثة، القاهرة

غفاری کاشانی، غلامرضا طباطبایی‌مجد، *گلشن مراد*، سال چاپ: ۱۳۶۹ ناشر: زرین، تهران

غلام سرور، *تاریخ شاه‌اسماعیل صفوی*، مترجم: محمدباقر آرام، عباسقلی غفاری‌فرد، ناشر: مرکز نشر دانشگاهی, ۱۳۷۴ تهران

غیاث‌الدین خواندمیر، *حبیب السیر فی اخبار افراد البشر*، زیر نظر دکتر دبیر سیاقی، انتشارات خیام، ۱۳۸۰، تهران

فخرالدین ابن ابی الحدید، *شرح نهج البلاغة*، الناشر: مکتبة آیة الله العظمی المرعشي النجفي، ۱۹۸۶ قم

فضل‌اللّه بن روزبهان‌خنجی، *تاریخ‌عالم‌آرای‌امینی: شرح‌حکمرانی‌سلاطین آق‌قویونلو و ظهور صفویان*، چاپ‌محمد اکبر عشیق،۱۳۸۲ تهران

فیاض انوش ابوالحسن، *میرحسین میبدی یک بازشناسی تاریخی*، پژوهش های تاریخی، شماره دو، آبان ۱۳۸۹

قاضی احمد غفاری قزوینی، *تاریخ جهان آرا*، کتابفروشی حافظ، ۱۳۴۳ تهران

قاضی احمد قمی، *خلاصة التواریخ*، ۱۳۵۹ انتشارات دانشگاه تهران

کمالالدین سمرقندي عبدالرزاق، *مطلع سعدین و مجمع بحرین*، به کوشش عبدالحسین نوایی، موسسه مطالعات و تحقیقات فرهنگی، ۱۳۸۳، تهران

کاترینو زنو، *سفرنامه کاترینوزنو*، در سفرنامه‌های ونیزیان در ایران، ترجمه منوچهر امیری، تهران: خوارزمی، ۱۳۸۱ش

محمد ابن إیاس، *بدائع الزهور في وقائع الدهور*، تحقیق محمد مصطفي، ۱۹۶۳ القاهرة

محمد راغب بن محمود الطباخ الحلبی، *إعلام النبلاء بتاریخ حلب الشهباء*، حلب:منشورات دارالقلم العربی، ۱۴۰۸ ه.ق

محمد محیططباطبایی، *صفویه‌از تخت پوست درویشی‌تا تخت شهریاری*، ماهنامه‌وحید، سال‌سوم، ش، ۱۳۵۴

محمد میرخواند، *روضة الصفا*، (باقي المؤلفين :خواند میر غیاث‌الدین بن همام‌الدین و هدایت رضا قلی بن محمد هادی)، الناشر: دارالطباعه، ۱۲۷۰ هجری قمری، تهران

محمدعارف اسپناقچی پاشازاده، *انقلاب الاسلام بین الخواص و العوام*، انتشارات دلیل، ۱۳۷۹ قم

محمدقاسم گنابادی حسینی، *شاه اسماعیل‌نامه*، فرهنگستان زبان و ادب فارسی، ۱۳۸۷ تهران

محمدیار ابن عرب قطغان، مسخر *البلاد (تاریخ شیبانیان)*، ناشر: میراث مکتوب، ۱۳۸۵ تهران

مزاوي میشل، *پیدایش دولت صفوي*، ترجمه یعقوب آژند، نشر گستره، ۱۳۶۸، تهران

مهدی درخشان، *پیرامون کلمة شیخ و سید*، مجله‌دانشکده‌ادبیات‌و علوم‌انسانی، ۱۳۵۳، شماره چهار

میرزابیگ جنابذی، *روضة الصفویه*، مصحح: غلامرضا طباطبایی مجد، ناشر: بنیاد موقوفات دکتر محمود افشار، ۱۳۷۸ تهران

نصرالله فلسفی، *جنگ چالدران*، مجلهٔ دانشکده ادبیات، سال اول، شمارهٔ دو، ۱۳۳۲

نورالله شوشتری، *مجالس المومنین*، ناشر: انتشارات کتابفروشی اسلامیه، ۱۳۷۷ تهران

ولادیمیر مینورسکی، *ایران در قرن پانزدهم* (به زبان فرانسه و ترجمه شده به فارسی)، تهران

روبرت رویمر، *ایران در راه عصر جدید: تاریخ ایران از ۱۳۵۰ تا ۱۷۵۰*، مترجم: آذر هانس آهنچی، موسسه چاپ و انتشارات دانشگاه تهران، ۱۳۸۰، تهران

**Türk, ingilis və rus dillərində:**


Artan Mihriban, *Şahkulu ayaklanmasında Mehdi söylemi ve hicri 1000 yılı üzerinde bir degerlendirme* (türk), Alevilik-Bektaşilik Araştırmaları Dergisi, 2022.

Aşık Paşazade, *Aşık Paşazade Tarihi*, Ali Bey, 1987 İstanbul.

Aşık Paşazade, *Tevarih-i Âl-i Osman*, 1953, Istanbul.

Brummett Palmira, *Keşifler Çağında Osmanlı Denizgücü ve Doğu Akdeniz'de Diplomasi*, (trans. Nazlı Pişkin) 2009, İstanbul.

Danişmend İsmail Hami, *Eski Koçhisar zaferi*, Doğu Kütüphanesi, 1971, Topkapı İstanbul.

Faruk Sumer, *Safevi Devleti'nin Kuruluşu ve Gelişmesinde Anadolu Türklerinin Rolü (türk)*, Ankara: Türk Tarih Kurumu Basımevi. 1999.

Firudun bey Ahmed, *Mecmua-i münşeatüs-selatin*, 1848, İstanbul.

Fisher Nettleton, *Sultan Bayezid Han 1481–1512*, trans - Hazal Yalın, 2014, Istanbul.

Franz Babinger, *Marino Sanuto's Tagebücher als Quelle zur Geschichte der Safawijja*, Wurzburg.

Haldun Eroğlu, *Osmanlıya karşı savaşan Osmanlı şahzadesi: Şahzade Ahmetin oğlu Kasım*, "OTAM Dergi-Park" məcəlləsi, 2002, Sayı: 13, Ankara.

Halil İnalcık ve başkaları, *The Ottoman Empire: The Classical Age 1300-1600*, 1973 London.

Hammer, *Osmanlı Tarihi*, Cilt I, İlgi Kültür Sanat Yayınları, Çev: Mehmet Ata, Abdülkadir Karahan, 1990 İstanbul.

Hoca Sadeddin Efendi, *Tacü't-Tevarih*, 1585 İstanbul.

İsmail Hakkı Uzunçarşılı, *Büyük Osmanlı Tarihi*, Türk Tarih Kurumu Yayınları, 7-ci baskı.

K.Bintülhüda, *Akkoyunlu devletinde tasavvuf ve tarikatlar*, T.C.Dicle Üniversitesi Sosyal Bilimler Enstitüsü Temel İslam Bilimleri Anabilim Dalı Tasavvuf Bilimi, 2021 Diyarbakır.

Mehdi İlhan, *Bıyıklı Mehmed Paşa*, TDV İslam Ansiklopedisi, https://islamansiklopedisi.org.tr/biyikli-mehmed-pasa.

Michel M. Mazzaoui, *The origins of the Safawids: Shiism, Sufism, and the Gulat*, Wiesbaden 1972.

Namıg Musali, *Şeyh İbrahim Safevî Döneminde Erdebil Tekkesi*, Türk Kültürü ve Hacı Bektaş Veli Araştırma Dergisi, Yıl 2016, Sayı: 80.

Necdet Sakaoğlu, *Bu mülkün kadın sultanları: vâlide sultanlar, hâtunlar, hasekiler, kadınefendiler, sultanefendiler*, Oğlak Yayıncılık, 2008 İstanbul.

Necdet Sakaoğlu, *Bu Mülkün Sultanları*, Oğlak Yayınları, 1999 İstanbul.

Nihat Çetinkaya, *Kızılbaş Türkler: Tarihi, oluşumu ve gelişimi,* Kripto yayınevi, 2010 Ankara.

Oral Mustafa, *Ulusal Bağımsızlık Savaşı Yıllarında Türkiye'de Hilafet ve Saltanat Sorunu*, Atatürk Yolu Dergisi 5, sy. 18 Ağustos 1996.

Tekindağ Şehabeddin, *Bayezidin ölümü meselesi*, Tarih Dergisi, Sayı: 24.1, 1970.

Tərtibatçı Prof. Dr. Abdülkadir Özcan, *Kanunname-i Al-i Osman*, Kronik Kitap Evi, 2017 İstanbul.

Tufan Gündüz, *Son Kızılbaş Şah İsmail*, Yedi tepe Yayın evi T.C. Kültür ve Turizm Bakanlığı, 2010 İstanbul.

Анатоли Новосельцев, *Некоторые вопросы государственной организации державы Сефевидов в Иране*. Ближневосточный Сборник. Тбилиси, 1983.

Илья Петрушевский, *Ислам в Иране в VII - XV веках*, s-366 (Издательство Ленинградского университета, 1966)

Октай Эфендиев, *Образование Азербайджанского государства Сефевидов в начале XVI века*. Баку, Изд. АН Азерб.ССР, 1961.

Руфат Аджалов, *Краткий очерк истории города по памятникам зодчества путеводитель по городу-заповеднику Ичеришехер*, Nəşriyyat: Teas Press, 2015 Баку.

**Elektron mənbələr:**

http://hadithtransmitters.hawramani.com

https://academiccommons.columbia.edu/doi/10.7916/D8ZW33DF

https://apa.az/az/culture-policy/seyx-heyder-turbesi-qeydiyyata-alinib-700080

https://islamansiklopedisi.org.tr/celali-isyanlari

https://www.xural.com/sah-ismayilin-xanimi/

İranica Ensklopediyası: https://www.iranicaonline.org/articles/alqas-alqasb-alqas-mirza-safawi

Muhaz.org https://muhaz.org/sefevilerin-menseyi.html

TDV İslam Ansiklopedisi, https://islamansiklopedisi.org.tr/biyikli-mehmed-pasa




*I Şah İsmayılın dövründə, Peyğəmbər və İmamların adlarının hәkk edildiyi Şahi sikkəsi*
(*Sekkehaye Şah İsmaile əvvəl*)



*Şah İsmayıl Səfəvi Mərv döyüşündə Şeybani xanla vuruşarkən*
*(Tarixi aləmarayi Abbasi)*



*Şah İsmayıl Səfəvinin məqbərəsi (Şeyx Səfi kompleksi- Ərdəbil)*



*Şah İsmayıl Səfəvinin məzarı*



*Şah İsmayıl Xətayinin heykəli (Bakı)*



*Şah İsmayılın möhürü: "Şahi-mərdan Əlinin nökəri İsmayıl Heydər oğlu, 917 h.q"*

Bağırov Samid Əlipaşa oğlu

# ŞAH İSMAYILIN HƏYATI

*("Fütuhati- şahi" və "Həbibüs-siyər" əsərləri əsasında)*

Kompüter tərtibçisi: *Səbinə İmanova*
Bədii tərtibat: *Şəlalə Məmməd*

Formatı 70x100 $^{1}/_{16}$
Həcmi 19.25 ç.v.
Tirajı 200